# Aqşin Əlizadə – 70

Respublikanın xalq artisti, tanınmış bəstəkar, Dövlət mükafatı laureatı Aqşin Əlizadə də ömrün 70-ci pilləsinə çatdı. 70 yaşlı sənətkarın tərcümeyi-halından bəzi məqamları diqqətinizə veririk.

Aqşin Əliqulu oğlu Əlizadə 1937-ci il mayın 22-də Bakıda anadan olmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. A.Əlizadə müasir Azərbaycan musiqisində orijinal dəst-xətti olan sənətkarlarımızdandır. O neçə-neçə simfoniyanın, «Babək» baletinin (1979), «Bayatılar» silsiləsinin (1967), «İyirmialtılar» kantatasının (1976), «Kənd süitası»nın (1973), «Abşeron lövhələri» (1983) və s. simfonik əsərlərin, kamera orkestri üçün «Pastoral» və «Aşıqsayağı»nın (1970), bir çox xor əsərlərinin, kinofilmlərə («Tütək səsi», «Təkcə adanı özünlə apara bilməzsən» və s.) və dram tamaşalarına yazılmış musiqinin müəllifidir. Pedaqoji fəaliyyətlə məşğuldur.

1979-1985-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi vəzifəsində çalışmışdır.

**S.MAHMUDZADƏ**